| Versiya | Hazırlanıb: | Təsdiq edilib: | Tarix: |
|---|---|---|---|
| 1.0 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 14 Dekabr 2020 |
| 1.1 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 19 May 2022 |
| 1.2 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 16 Sentyabr 2022 |
| 1.3 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 07 Sentyabr 2023 |
| 1.4 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 14 Dekabr 2023 |
| 1.5 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 11 Fevral 2025 |
| 1.6 | Risklərin İdarəedilməsi Departamenti | Müşahidə Şurası | 06 May 2026 |

# Risklərin İdarəedilməsi Siyasəti

| | |
|---|---|
| **Sənədin müəllifi:** | Risklərin İdarəedilməsi Departamenti |
| **Razılaşdırılıb:** | Günel Ağayeva/ Layihələrin İdarə Edilməsi və Metodologiya Departamenti<br>Həsən Həsənov/Maliyyə Departamenti<br>Aytən Sadıqova/Risklərin İdarəedilməsi Departamenti<br>Nüşabə Yusifova/Hüquq və ƏL/TMM Departamenti<br>İdarə Heyəti |
| **Təsdiqlənib:** | Müşahidə Şurası |
| **Qüvvəyə minmə tarixi:** | 06.05.2026-cı il tarixindən |
| **İstifadəçilər:** | Risklərin İdarəedilməsi Departamenti |

**Müşahidə Şurası**

## Mündəricat:

Risklərin İdarəedilməsi Siyasəti ........ 1
1. Giriş və məqsəd ........ 4
2. Risklərin idarə edilməsinin təşkilati strukturu ........ 4
3. Əsas risk sahələri ........ 9
4. Kapitalın idarə olunması ........ 13
5. Risklərin idarə edilməsi prosesi ........ 13

## 1. Giriş və məqsəd

"Access Bank" QSC-nin (bundan sonra "Bank" adlanacaq) Risklərin İdarə Edilməsi Siyasəti "Banklar haqqında" Qanuna, "Banklarda Korporativ İdarəetmə Standartları"na, Azərbaycan Respublikası Mərkəzi Bankının digər qaydalarına və normativ-hüquqi aktlarına, Bazel Komitəsinin təlimatlarına, Bankın Nizamnaməsi və Risklərin İdarə Edilməsi Strategiyasına uyğun hazırlanmışdır.

Bu siyasətin məqsədi Bankın risklərin idarə edilməsi strukturunu və əsas proseslərini müəyyənləşdirməkdir. Bankın xüsusiyyətlərinə, miqyasına və əməliyyat mövqeyinə uyğun gələn və əlavə qaydaların hazırlanması üçün bir çərçivə rolunu oynayan risklərin idarə edilməsi sisteminin təşkili və fəaliyyətinin əsas prinsiplərini təqdim edir. Əməliyyat Risklərinin İdarə Edilməsi Siyasəti, Faiz Dərəcəsi və Likvidlik Risklərinin İdarə Edilməsi Siyasətləri , Kredit Riskinin İdarə Edilməsi Siyasəti, Xarici Valyuta və Kontragenti ilə əlaqəli Risklərin İdarə Edilməsi Siyasətləri, ƏL/TMM Siyasəti, —İnformasiya Təhlükəsizliyi Siyasəti, Fövqəladə Maliyyə Planı və Biznesin Davamlılığı Siyasəti daxil olmaqla, daha ətraflı məlumat təmin edən əlavə siyasət və prosedurlarla tamamlanır. Bank bu siyasəti ildə bir dəfə nəzərdən keçirir və zəruri hallarda mövcud siyasətə müvafiq dəyişikliklər edilir.

Bankın əsas fəaliyyət istiqaməti mikro sahibkarlara kreditlərin verilməsi və Kiçik və Orta Bizneslərə (KOB-lar), habelə fərdi şəxslərə hərtərəfli Bank xidmətləri göstərilməsidir. Bank orta aşağı risk profilini saxlayır, çünki:

- Kreditlər və digər maliyyə məhsulları sadə və birbaşa xarakter daşıyır, və ödəmə qabiliyyəti Bank tərəfindən yaxşı bilinən ev təsərrüfatlarına və ya kiçik müəssisələrə verilir.
- Hər bir müştəri qrupu, iqtisadi sektor və ya coğrafi bölgədə çox az konsentrasiya ilə mükəmməl çeşidlilik mövcuddur.
- Bank spekulyativ əməliyyatlar aparmır, qapalı valyuta mövqeyini hədəfləyir və ticarət portfeli tutmur.

## 2. Risklərin idarə edilməsinin təşkilati strukturu

Bankda risklərin idarə edilməsinin təşkili aşağıda göstərilmiş iyerarxik və funksional çərçivədə qurulmuşdur:



Müşahidə Şurası Bankda risklərin idarə edilməsi funksiyasının təşkili və nəzarəti üzrə cavabdehdir. Bu səbəblə Risklərin İdarə Edilməsi Komitəsi (RMC) və Audit Komitəsi yaradıldı. Audit Komitəsi Daxili Audit Departamentinin işinə nəzarət edir və onun müstəqilliyini təmin edir.

Bank aşağıdakı tərkibdə olan İdarə Heyəti tərəfindən idarə olunur: Sədr, Baş Maliyyə İnzibatçısı, Baş Risk İnzibatçısı, Baş Biznes İnzibatçısı və Baş Əməliyyat İnzibatçısı.

### 2.1. Müşahidə Şurası

- Bankın iş strategiyasını müəyyənləşdirir;
- Bankda onun risk profilinə uyğun olaraq rasional risklərin idarə edilməsi sisteminin qurulmasına cavabdehdir;
- Risklərin idarə edilməsi strategiyasını, siyasətini, təşkilati strukturunu təsdiq edir;
- İdarə Heyətinin risklərin idarə edilməsi üzrə işinə nəzarət edir, Baş Risk İnzibatçısından və/və ya Risklərin İdarə Edilməsi Departamentindən birbaşa hesabatlar alır;
- İdarə Heyətinin/Risklərin İdarə Edilməsi Komitəsinin Bankın risklərin idarə edilməsi praktikaları ilə bağlı təkliflərinə dair qərar qəbul edir;
- Risk limitlərini və risk iştahı bəyannaməsini təsdiq edir;
- Risklərin idarə edilməsi sisteminin səmərəliliyini ildə ən azı bir dəfə qiymətləndirir;
- Biznesin Davamlılığı Siyasətini və Fövqaladə Maliyyə planını təsdiq edir;
- Bankın nizamnaməsi ilə müəyyən edilmiş hüdudlar daxilində rəhbərliyin risk alınmasına dair qərar vermə səlahiyyəti üzrə məhdudiyyətləri müəyyən edir.
- Bankın İdarə Heyəti üçün müəyyən edilmiş səlahiyyət həddini aşan kredit risklərini təsdiq edir.

### 2.2. Risklərin İdarə Edilməsi Komitəsi

- Risklərin idarə edilməsi strategiyasını, siyasətini, qaydalarını və məhdudiyyətlərini nəzərdən keçirir və təsdiq üçün Müşahidə Şurasına təqdim edir;
- Risk iştahı bəyannaməsini, risk limitlərini nəzərdən keçirir və təsdiq üçün Müşahidə Şurasına təqdim edir;
- Bankın risklərini aydınlaşdırmaq və qiymətləndirmək üçün müvafiq metod və vasitələri müəyyənləşdirir və həmin metodların həyata keçirilmə tezliyini müəyyən edir;
- Bankın məruz qaldığı risklər və Bankda risklərin idarə edilməsi sistemlərinin səmərəliliyi barədə Müşahidə Şurasına hesabat verir;
- Qəbul edilmiş risklərin Risklərin İdarə Edilməsi Strategiyasına uyğunluğunu yoxlayır/nəzarət edir;
- Müşahidə Şurasına Bankda risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayır;
- Risklərin idarə edilməsi Departamentinin işini və risklərin idarə edilməsi sisteminin səmərəliliyini qiymətləndirir; Rəhbərliyə və Müşahidə Şurasına nəticələr barədə məlumat verir;
- Təklif olunan məhsulun/xidmətlərin Bankın strategiyasına və biznes modelinə uyğunluğunu yoxlayır, qiymət və gəlirlilik nəzərə alınmaqla həmin məhsullarla bağlı riskləri dəyərləndirir;
- Müşahidə Şurasına risklərin idarə edilməsi funksiyalarını yerinə yetirən struktur bölmə və komitələrin vəzifə öhdəlikləri ilə bağlı təkliflər verir;
- Risk iştahı bəyannaməsi ilə bağlı hesabatlara nəzarət edir, limitlərə dair pozuntular barədə Müşahidə Şurasına məlumat verir, onların bazar şərtlərinə uyğun olaraq aradan qaldırılması üçün təkliflər verir;
- İdarə Heyəti ilə birlikdə Biznes Davamlılığı Siyasətini və Fövqaladə Maliyyə Planını nəzərdən keçirir və təsdiq üçün Müşahidə Şurasına təqdim edir;

- Risk mədəniyyətinin mövcud vəziyyətini qiymətləndirir və gücləndirilməsi üçün tədbirlər görür;
- Ən azı üç ayda bir dəfə iclaslar keçirir və onların nəticələri barədə Bankın Müşahidə Şurasına hesabat verir;
- Baş Risk İnzibatçısı tərəfindən təqdim olunan müntəzəm hesabatları nəzərdən keçirir.

**2.3. İdarə Heyəti**

- Risklərin İdarə Edilməsi Strategiyasının və Risklərin İdarə Edilməsi Siyasətinin icrasını təmin edir;
- Bankda risklərin idarə edilməsi prosesini təşkil edir;
- Məruz qalınmış riskləri təhlil edir və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görür;
- Bankın yeni məhsullarının tətbiqinə dair qərar verir;
- Müşahidə Şurasına və Risklərin İdarə Edilməsi Komitəsinə risklər və onların idarə edilməsi barədə hesabatlar təqdim edir;
- Bankın risklərini adekvat idarə etmək məqsəddilə risklərin idarə edilməsi funksiyası üçün uyğun mühit yaradır;
- Risklərin İdarə Edilməsi Komitəsi ilə birlikdə Biznesin Davamlılığı Siyasətini və Fövqəladə maliyyə Planını nəzərdən keçirir və Müşahidə Şurasına təqdim edir;
- Risklərin idarə edilməsi və müdaxilə edilməməsi üçün Bankın digər struktur bölmələrinin əməkdaşlığını və dəstəyini təmin edir;
- Bankın biznes fəaliyyətini risklərin idarə edilməsi strategiyasına, bu siyasətə və risklərin idarə edilməsinə dair prudensial tələblərə uyğun həyata keçirir.

**2.4. Baş Risk İnzibatçısı**

- İdarə Heyətinin rəyini nəzərə alaraq risklərin idarə edilməsi strategiyası və siyasətini hazırlayır və Risklərin İdarə Edilməsi Komitəsinə təqdim edir;
- İdarə Heyətinin və Bankın struktur bölmələrinin risklərin idarə edilməsi ilə bağlı fəaliyyətini koordinasiya edir;
- Risk limitləri göstəricilərini, habelə Bankın risk profili nəticələrini aylıq əsasda izləyir. Risk iştahı göstəricilərində hər hansı yayınma olduqda dərhal səbəbləri ilə birlikdə Risklərin İdarə Edilməsi Komitəsinə məlumat verir;
- Bankın fəaliyyəti ilə bağlı risklərin növləri və həcmini əks etdirən dövri hesabatların etibarlı, şəffaf, hərtərəfli və vaxtlı-vaxtında hazırlanmasını təmin edir;
- Risklərin İdarə Edilməsi Komitəsinə və Müşahidə Şurasına risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;
- Bankın risklərə məruz qalmasının risklərə davamlılıq qabiliyyətinə, risklərin idarə edilməsi strategiyasına və risklərin idarə edilməsinə dair prudensial tələblərə uyğun olmasını təmin edir;
- Risklərin idarə edilməsi funksiyalarını yerinə yetirən struktur bölmələrin işçilərinin bilik və bacarıqlarının artırılması üçün tədbirlər görür;
- Risklərin idarə edilməsi strategiyasının nəzərdən keçirilməsi prosesində, habelə risklərin idarə edilməsi ilə bağlı məsələləri müzakirə etmək üçün Müşahidə Şurasının iclaslarında iştirak edir;
- Bankın üzləşdiyi risklərə dair mütəmadi hesabatların hazırlanmasını təmin edir;
- Risklərin İdarə Edilməsi Departamentinin işçilərinin bilik və bacarıqlarının artırılması üçün tədbirlər görür;
- Risklərin idarə olunması ilə bağlı bütün məsələlər barədə Müşahidə Şurasına və RİK-nə məlumat verir;

- Bankın Risklərin İdarə Edilməsi, Əməliyyatlara Nəzarət, Anderraytinq, və Maliyyə Restrukturizasiyası və Kreditlərin bərpası Departamentlərinə nəzarət edir.

**2.5. Risklərin İdarə Edilməsi Departamenti**

- Risklərin idarə edilməsinin ümumi koordinasiyasını təmin edir;
- Bankın risklərin idarə edilməsi sistemində ikinci müdafiə xəttini təmin edir;
- Bankın risklərin idarə edilməsi ilə bağlı daxili qaydalarını, habelə onlara dəyişiklikləri hazırlayır;
- Risklərin idarə edilməsi strategiyası və siyasətinə riayət edilməsinə nəzarət edir, yayınma halları barədə Risklərin İdarə Edilməsi Komitəsi və İdarə Heyətinə məlumat verir;
- Bankın müvafiq struktur bölmələri ilə birlikdə Risklərin İdarə Edilməsi Komitəsinə və İdarə Heyətinə müxtəlif fəaliyyət növləri üzrə risk limitləri barədə təkliflər verir;
- Aidiyyəti bölmələrlə birlikdə Bankda müvafiq risklərin müəyyənləşdirilməsi, ölçülməsi və nəzarət edilməsi üçün bütün zəruri vasitələri hazırlayır;
- Risklərin qiymətləndirilməsi, təhlili və nəticələrinə dair hesabatları İdarə Heyətinə, Risklərin İdarə Edilməsi Komitəsinə və Müşahidə Şurasına təqdim edir;
- Bankın risklərin müəyyənləşdirilməsi və idarə edilməsi üzrə fəaliyyətini əhatə edən bütün proseslər, yeni məhsullar və xidmətlər barədə rəy verir;
- Müntəzəm iş proseslərinin, habelə yeni məhsul və xidmətlərin risklərin müəyyənləşdirilməsi və idarə olunması baxımından qiymətləndirilməsini təmin edir;
- Müvafiq struktur bölmələrlə birlikdə stres testləri keçirir və müəyyən edilmiş riskləri azaltmaq üçün tədbirlər planı hazırlayır;
- Bankın digər struktur bölmələrindən risklərin idarə edilməsi məqsədi ilə alınan məlumatları təhlil edir;
- Risklərin İdarə Edilməsi Komitəsinə risklərin idarə edilməsi prosesində adekvat və effektiv nəzarət prosedurlarının təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;
- Bankın aidiyyəti departamentləri ilə birlikdə Fövqəladə Maliyyə Planı hazırlayır;
- Risk iştahı bəyannaməsini hazırlayır və Baş Risk İnzibatçısına təqdim edir;
- Biznes planlaşdırma prosesində iştirak edir, təklif olunan planların Bankın təsdiq edilmiş risk iştahası, risk tutumu və strateji məqsədləri ilə uyğunluğunu təmin edir;
- Kredit, bazar və likvidlik riskləri ilə bağlı əsas planlaşdırma fərziyyələrini nəzərdən keçirir və onlara tənqidi yanaşır, məlumatlı qərarların qəbulunu dəstəkləmək üçün müstəqil risk rəyi təqdim edir;
- Büdcələşdirmə məqsədləri üçün gözlənilən kredit zərərlərini/ehtiyatlarını hesablayır və təsdiqləyir, risk parametrləri, portfelin keyfiyyəti və tətbiq olunan mühasibat və tənzimləyici standartlarla uyğunluğu təmin edir.
- Risk iştahı bəyannaməsinə və risk limitlərinə uyğunluğunu yoxlayır/nəzarət edir və İdarə Heyəti və Risklərin İdarə Edilməsi Komitəsinə hesabat verir;
- Sağlam bir risk mədəniyyətinə zərər verə biləcək riskləri və zərərli vərdişləri dəyərləndirir və Risklərin İdarə Edilməsi Komitəsinə ildə ən azı bir dəfə potensial risklər barədə məlumat verir;
- Layihə risklərini qiymətləndirir, İdarə Heyətinə və Risklərin İdarə Edilməsi Komitəsinə müvafiq tədbirlərin görülməsi barədə təkliflər verir;
- Bütün zəruri tədbirlər görüldükdən sonra Qalıq Risk Hesabatını hazırlayır və İdarə Heyətinə təqdim edir;
- Riskli halların müəyyən edilərək qeydiyyata alınmasını, onların faktiki və mümkün zərərlər baxımından qiymətləndirilməsini və müvafiq hesabatların hazırlanmasını təmin edir;
- Bankın müvafiq struktur bölmələrinə risklərin idarə edilməsi üzrə metodiki yardım göstərir;
- Bankın kapital adekvatlığının stres testlərini həyata keçirir;
- Müəyyən edilmiş risklərin azaldılması üçün tədbirlər planı hazırlayır;

- Bankın müvafiq struktur bölmələri ilə birlikdə Biznesin Davamlılığı Siyasətini hazırlayır və RMC və İdarə Heyətinə təqdim edir;
- Bankın risk xəritəsini hazırlayır, risklərin azaldılması üçün tədbirlər planı tərtib edir və icrasına nəzarət edir;
- İdarə heyəti tərəfindən müəyyən edilmiş risk limitlərinə riayət olunmasına nəzarət edir və pozuntu halları barədə Baş Risk İnzibatçısına məlumat verir;
- Müşahidə Şurası, RİK və rəhbərlik üçün Bankın üzləşdiyi bütün əsas risklər barədə mütəmadi hesabatlar hazırlayır və təhlil edir;
- Əməliyyatların müəyyən olunmuş limitlərə uyğunluğuna nəzarət edərək Xəzinədarlıq Departamenti üçün təşkilati-nəzarət bölməsinin funksiyasını icra edir;
- Bankın risk iştahına uyğun olaraq müvafiq sığorta təminatını qoruyub saxlamasını təmin edir.

**2.6. Bankın biznes şöbələri**

- Bankın risklərin idarə edilməsi sistemində birinci müdafiə xəttini təmin etməklə gündəlik fəaliyyətdəki riskləri öz səlahiyyətləri daxilində idarə edir;
- Təsdiq edilmiş risk limitlərinin qorunub saxlanılmasını təmin edir.

**2.7. Daxili Audit**

- Risklərin idarə edilməsi sisteminin adekvatlığını nəzərdən keçirir;
- Yoxlamaların nəticələri ilə əlaqədar Müşahidə Şurasına və Audit Komitəsinə hesabat, təklif və tövsiyələr verir və Risklərin İdarə Edilməsi Departamenti ilə məlumat mübadiləsi aparılmasını təmin edir;
- Bankın risklərin idarə edilməsi sistemində üçüncü müdafiə xəttini təmin edir.

**2.8. Əməliyyatlara Nəzarət Departamenti**

- Filial əməliyyatlarının Bankın prosedurlarına uyğunluğunu yoxlayır;
- Mikrokreditlər və Pərakəndə kreditlər üzrə təhlilin keyfiyyətini yoxlayır;
- Bankın ikinci müdafiə xəttinin bir hissəsini təşkil edir.

**2.9. Anderraytinq Departamenti**

- Filiallar üçün müəyyən edilmiş limitlərdən kənar kredit verilməsi məqsədilə kredit sənədlərini nəzərdən keçirir və təsdiq edir;
- Daha böyük risklər üçün maliyyə təhlili aparır;
- Bank işçilərinə təlim və sınaq əsasında kredit təsdiqləmə limitləri təyin edir;
- Bankın ikinci müdafiə xəttinin bir hissəsini təşkil edir.
- Potensial girovlar üçün qiymətləndirmə fəaliyyətlərini həyata keçirir;

**2.10. Aktiv-Passivlərin İdarə Edilməsi Komitəsi**

- Aktiv-Passivlərin İdarə Edilməsi Komitəsi (ALCO) Müşahidə Şurasının idarəetmə səviyyəli daxili komitəsidir.

- ALCO Bankın likvidliyinin, OCP-nin idarə edilməsi və maliyyələşdirmə fəaliyyəti, habelə xəzinədarlıq Departamentinin işinə nəzarət və RMC tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində onun işi üzrə təlimatlar verilməsi üçün cavabdehdir.
- ALCO kreditlər və depozitlər üçün standart faiz dərəcələrinin müəyyən edilməsi üzrə cavabdehdir.

## 3. Əsas risk sahələri

### 3.1. Kredit riski

Bank Kredit riskini sövdələşmədə iştirak edən tərəflərdən hər hansı birinin müqavilə öhdəliklərini ümumiyyətlə, tam və ya vaxtlı-vaxtında yerinə yetirmədiyi təqdirdə itkilərə məruz qalma riski kimi müəyyən edir. Kredit verilməsi Bankın əsas fəaliyyət istiqamətidir və müvafiq olaraq kredit riski idarə olunmalı əsas riskdir. Bank kredit risklərini bir neçə müxtəlif hədəf qrupu üzrə idarə edir:

**Mikro biznes müştəriləri:** Mikrokreditləşmə ənənəvi olaraq Bankın əsas fəaliyyət istiqamətidir və Bank bu müştərilərlə əlaqəli kredit risklərinin qiymətləndirilməsi və idarə edilməsi üzrə tanınmış bir mütəxəssis qurumdur. Müştərilərin çox sadə iş modelləri var və onlar fəaliyyət yekunları, iş yerlərinin vizual yoxlanılması və mövcud sənədlər əsasında asanlıqla təhlil edilir. Maliyyə vəziyyəti Kredit Mütəxəssisi tərəfindən təhlil edilir və kreditlər baş kredit mütəxəssisləri və filial rəhbərləri tərəfindən Baş Ofisin məhdud iştirakı ilə təsdiqlənir. Sindikatlaşdırılmış kreditdəki payın kiçik olması səbəbilə risklər olduqca yaxşı çeşidləndirilmiş və profilaktik nəzarət biznes departamentinə həvalə edilmişdir. Əməliyyatlara Nəzarət Departamenti ciddi nəzarət təmin edilməsi və saxtakarlığın aşkar edilməsində mühüm rol oynayır.

**Kiçik, Orta və Korporativ müştərilər:** Bu müştərilər Mikro müştərilərə nisbətən daha çeşidli biznesə malikdirlər, əksər hallarda onları daha uzun fəaliyyət yekunları və daha yaxşı tərtib edilmiş uçot sənədləri olur. Sindikatlaşdırılmış kreditdəki payı daha böyük olduğu üçün onlara daha yüksək səviyyədə profilaktik nəzarət təmin edilir. Riskə məruz qalma həcmindən asılı olaraq, müştərilər kredit mütəxəssisləri tərəfindən təhlil oluna bilər, lakin onlar Anderraytinq Departamentinin iştirakı ilə təsdiqlənir (Kiçik risklərə məruz qaldıqda), və ya Anderraytinq Departamenti kredit təhlili üçün tam məsuliyyəti öz üzərinə götürə bilər (daha böyük, Korporativ risklərə məruz qaldıqda).

**Pərakəndə müştərilər:** Pərakəndə müştərilər Bankın kredit portfelinin ikinci böyük hissəsini təşkil edir və əməkhaqqı, pensiya və ya bənzər mütəmadi gəlirlər əsasında fərdi şəxslərdən ibarətdir. Ən geniş yayılmış məhsul qısamüddətli nağd kreditdir. Sənədləşdirmə və maliyyə təhlili çox sadədir, sənədləşdirilmiş mütəmadi gəlirə və milli tənzimləyici orqan tərəfindən müəyyən edilmiş DTI və LTV əmsallarına uyğun yanaşmaya əsaslanır. Kredit təhlili kredit mütəxəssisi tərəfindən və ya Anderraytinq Departamentində aparılır. Kreditlər bənzər şəkildə filialın baş kredit mütəxəssisləri və ya filial rəhbərləri tərəfindən və ya Anderraytinq Departamentində təsdiq edilir.

Kredit risklərini tənzimləyən əsas sənəd Kredit Riskinin İdarə Edilməsi Siyasətidir. Risklərin İdarə Edilməsi Departamenti portfelə əsasən kredit risklərinə nəzarət edir, risklərə nəzarət edilən və hesabat verilən konsentrasiya hüdudlarını və əsas risk göstəricilərini müəyyənləşdirir.

### 3.2. Kontragent riski:

Bank kontragent riskini, o cümlədən emitent riskini kontragentin/emitentin müqavilə öhdəliklərini ümumiyyətlə, tam və ya vaxtlı-vaxtında yerinə yetirə bilməməsi riski kimi müəyyən edir. Bankın riski əsasən likvidlik riskinin azaldılması məqsədi ilə yüksək likvidli aktivlərin mənfəət əldə etmək məqsədi ilə deyil, potensial stres hallarında ehtiyat kimi saxlanılmasından irəli gəlir. Bankların strategiyası likvidliyini təhlükəsiz şəkildə investisiya etmək və riskləri çeşidləməkdir. Bank yalnız diqqətlə seçilmiş kontragentlərlə işləyir və adətən öz vəsaitlərini qısa müddətə yatırır. Bankın əlavə olaraq nağd və hedcinq əməliyyatları daxil olmaqla ödənişlərlə bağlı işlər və OCP-nin idarə olunması üçün təsdiqlənmiş kontragentləri var. Bank əvvəlcə kontragenti təsdiq etmədən və limiti müəyyən etmədən heç bir sövdələşmə bağlamır. Müşahidə Şurası qismən və ya tamamilə İdarə Heyətinə həvalə edilə bilən bu limitlərin müəyyənləşdirilməsinə cavabdehdir.

Risklərin İdarə Edilməsi Departamenti yerləşdirilmələrin təsdiq edilmiş limitlərə uyğun aparılmasını təmin etmək üçün Xəzinədarlıq Departamentinin fəaliyyətinə nəzarət edir və bu barədə hesabat verir.

Bu sahəni tənzimləyən əsas sənəd XV və kontragent risklərinin idarə edilməsi siyasətidir.

### 3.3. Bazar riski

Bank bazar riskini bazar qiymətlərindəki mənfi dəyişkənliklər nəticəsində yaranan dəyər itkisi və ya gözlənilən mənfəətin azalması riski kimi müəyyən edir. Bazar riskləri faiz dərəcəsi riskləri, kapital riskləri, xarici valyuta riskləri və əmtəə risklərindən ibarətdir. Bank öz strategiyasına uyğun olaraq spekulyativ əməliyyatlar aparmır, kapital qoyuluşları etmir və öz hesabına ticarət etmir. Ona görə də Bankın potensial olaraq üzləşə biləcəyi əsas bazar riskləri faiz dərəcəsi riski və valyuta riskidir.

**Faiz dərəcəsi riskinə** gəldikdə, Bank bütün ödəniş müddətləri üzrə adekvat şəkildə balanslaşdırılmış aktiv və passivlərin yenidən qiymətləndirilməsi ilə əlaqədar balans strukturu yaratmağı hədəfləyir. Məqsəd təkrar qiymətləndirmə müddəti profillərini mümkün qədər aktiv və öhdəliklər arasında uyğunlaşdırmaqdır. Sabit faiz dərəcəli pərakəndə müştəri depozitləri əksəriyyətinin təxminən 1 il ödəniş müddəti olan maliyyələşdirmə bazasının əsas hissəsini və səciyyəvi olaraq ortalama 1-2 il ödəniş müddəti olan kredit portfeli aktivlərin əsas hissəsini əks etdirdiyi üçün orta səviyyəli boşluq aşkar edilmişdir. Faiz riski ilə bağlı artım prosesinə Risklərin İdarə Edilməsi Departamenti tərəfindən nəzarət edilir və RMC-yə hesabat verilir.

Risklərin İdarə Edilməsi Departamenti aylıq olaraq təsdiq edilmiş limitlər üzrə faiz dərəcəsi boşluğunu təhlil edir və RİK-nə hesabat verir. Bundan əlavə, hər hansı böyük maliyyələşdirmə əməliyyatı faiz dərəcəsi riskinə təsiri müəyyən etmək üçün Risklərin İdarə Edilməsi Departamenti tərəfindən əvvəlcədən nəzərdən keçirilir. Müəyyən edilmiş riskləri azaltmaq üçün hedcinq əməliyyatları həyata keçirilə bilər.

**Valyuta riskinə** gəldikdə, Bank ümumiyyətlə qapalı mövqe tutmağı hədəfləyir və spekulyativ əməliyyatlar aparmır. Xəzinədarlıq Departamenti OCP-ni ALCO, Müşahidə Şurası və milli tənzimləyici orqan tərəfindən müəyyən edilmiş limitlərə uyğun olaraq idarə edir. Xəzinədarlıq Departamenti üçün müəyyən edilmiş limitlər Bank müştərilərinin tələblərinə cavab vermək üçün elastikliyin təmin edilməsi və məqbul şərtlərlə mövqelərin bağlanması üçün imkan yaradır və Bankın öz hesabına ticarət etmək üçün nəzərdə tutulmur. Bank mövqeləri bağlamaq üçün zəruri hallarda yerli və beynəlxalq bazarlarda hedcinq əməliyyatları aparır. Strateji məqsəd hedcinq əməliyyatlarına ehtiyacı azaltmaq üçün aktiv və passivlərin valyuta strukturunu balanslaşdırmaqdır.

Valyuta riski gündəlik olaraq Xəzinədarlıq Departamenti tərəfindən idarə olunur və Risklərin İdarə Edilməsi Departamenti tərəfindən nəzarət olunur. OCP-nin inkişafı aylıq olaraq ALCO tərəfindən izlənilir və RİK-nə bildirilir.

### 3.4. Likvidlik və maliyyələşdirmə riski

Bank **likvidlik riskini** tələb olunan vəsaitin olmaması və ya qeyri-likvid aktivlərin tez bir zamanda nağd pula çevrilə bilməməsi səbəbilə Bankın qısamüddətli maliyyə tələblərini ödəyə bilməməsi riski kimi müəyyən edir.

Likvidlik riski Xəzinədarlıq Departamenti tərəfindən gündəlik olaraq idarə olunur və Risklərin İdarə Edilməsi Departamenti və ALCO tərəfindən aylıq olaraq nəzarət olunur. Bu sahəni tənzimləyən əsas sənəd Faiz dərəcəsi və likvidlik siyasətidir. Xəzinədarlıq Departamenti əməliyyat ehtiyaclarından artıq olan hər hansı likvidlikdən qazanc əldə etmək üçün təsdiq edilmiş kontragentlər və vasitələrlə likvidliyi yerləşdirir. Lakin Bank ticarət portfeli tutmur və fəaliyyətin məqsədi əlverişli qiymət hərəkətlərindən yararlanmaq deyil.

Likvidliyi məqsədəuyğun idarə etmək üçün Bank Likvidlik üzrə Fövqəladə Maliyyə Planı hazırlayır. Bu, Bankın öhdəliklərinin strukturunu və keçmiş davranışlarını yenidən nəzərə alan Risklərin İdarə Edilməsi Departamenti tərəfindən keçirilmiş stres testlərini diqqətə alır. Müştəri vəsaitlərinin Bankın balans hesabatında çox mühüm rol oynadığını nəzərə alaraq, Bank tənzimləyici orqan tərəfindən müəyyən edilmiş limitlərdən daha sərt ola biləcək daxili limitlər qoyur.

Likvidlik riski nisbətən qısa ödəniş müddətli annuitet kreditlərinin üstünlük təşkil etdiyi kredit portfelinin strukturu ilə azaldılır. Bu metod kredit portfelinə aylıq pul vəsaitlərinin daxil olmasını təmin edir, bu da böhran vəziyyətində (gözlənilməz şəkildə depozitlərin çıxarılması) əlavə bufer kimi istifadə edilə bilər. Bundan əlavə, risk Bankın depozit portfelinin yüksək səviyyədə strukturlaşdırılması ilə azaldılır.

**Maliyyələşdirmə riski** ALCO-nun səlahiyyətlərinə daxildir və mütəmadi orta rüb proqnozlaşdırmaları ilə idarə olunur ki, bu da kredit və depozit artımı planlarına düzəlişlər etmək, habelə zəruri hallarda topdan maliyyələşdirmə üzrə kontragentlərə müraciət etmək üçün kifayət qədər vaxt təmin edir.

### 3.5. AML riski

Bank AML riskini Bank xidmətlərinin çirkli pulların yuyulması və ya terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə istifadəsi riski kimi müəyyən edir.

AML riskləri filiallardan məlumatların toplanmasını və əməliyyatlar barədə Maliyyə Monitorinqi Xidmətinə mütəmadi hesabat verilməsini, zəruri hallarda əməliyyatların bloklanmasını təmin edən Hüquq və ƏL/TMM Departamenti tərəfindən idarə olunur. Şöbə eyni zamanda yeni müştərilərin qeydlərini nəzərdən keçirir, onları müvafiq qara siyahılarla qarşılaşdırır və zəruri hallarda Bankın yeni işgüzar əlaqələr qurmasının qarşısını alır. Hüquq və ƏL/TMM Departamenti prosesi dəstəkləmək üçün AML, Embarqo və KYC modulları olan Tonbeller Siron proqram təminatından istifadə edir və şübhəli müştəri fəaliyyətlərinin aşkar edilməsi üçün öz ssenarilərini hazırlamışdır.

AML funksiyası şübhəli əməliyyatlar, müştəri riskləri və əlaqəli uyğunluq məsələləri üzrə ƏL/TMM Komitəsinə dövri hesabatlar təqdim edir.

### 3.6. Əməliyyat riski

Əməliyyat riskini Bank İnsan Resursları riskləri (daxili dələduzluq riskləri daxil olmaqla), İnformasiya Təhlükəsizliyi riskləri, İT riskləri, Hüquqi, Nəzarət riskləri, Kənar risklər (xarici saxtakarlıq riskləri daxil olmaqla) kimi müəyyən edir.

Bankın üzləşdiyi əsas **insan resursları** riskləri işçilərin öz vəzifə öhdəliklərini icra edərkən etdikləri saxtakarlıqlarla bağlı risklərdir. Bank aşağıdakı yollarla bu riskin minimuma endirilməsi üçün çalışır:

- Güclü daxili nəzarət mühitinin yaradılması
- Daxili Audit və Əməliyyatlara Nəzarət Departamentinin yoxlamalarının nəticələri
- Müvafiq motivasiya strukturları
- Əməliyyat risklərinin sığortası (BBB)

Nəzarət mühiti bütün əsas iş prosesləri üçün düzgün müəyyən edilmiş nəzarət nöqtələri ehtiva edən və İT sistemi ilə dəstəklənən dəqiq yazılı prosedurlarla təmin olunur. Daxili nəzarət müvafiq hallarda dörd göz prinsipinin istifadə edildiyi profilaktik nəzarət tədbirləri və kiçik ölçülü əməliyyatlar üçün ciddi yoxlamaların birləşməsindən ibarətdir. Bundan əlavə filial əməliyyatlarının prosedurlara uyğunluğunu mütəmadi olaraq yoxlayan Əməliyyatlara Nəzarət Departamenti tərəfindən də dəstəklənir. Həvəsləndirici strukturlar həddindən artıq risk almağı təşviq etməmək üçün yalnız orta dərəcəli bonus komponentinə malik məqbul sabit əməkhaqqına əsaslanır.

Həyata keçirilmiş əməliyyatlarla bağlı risklər olduqda, BBB sığortası əsas beynəlxalq təkrarsığortaçılar tərəfindən zəmanət verilmiş yekun dəstək təmin edir.

Avtomatik sistemlər əl əməyini əvəz etməyə davam **etdikcə İT riskləri** hər bir Bank üçün daha vacib əhəmiyyət kəsb edir. Bu cür risklər Bankda aşağıdakılarla idarə olunur:

- Kənar bir yedəkləmə serveri lokasiyasının yaradılması
- İT Departamentində əsas funksiyalar üçün rezerv təmin edilməsi
- İT Departamentində əsas sistemlər və proseslər üçün müvafiq sənədlərin təmin edilməsi
- İT sahəsində mütəmadi kənar auditlər

**İnformasiya təhlükəsizliyi riskləri** İT riskləri ilə əlaqədardır, lakin buna baxmayaraq Bankın ümumi idarəetmə sisteminin ayrı bir hissəsini təşkil edir. İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsi Bankın informasiya ehtiyatlarından və sistemlərindən səhvən və ya qəsdən istifadə edilməsi nəticəsində ona dəyə biləcək mümkün maddi, reputasiya (nüfuzun itirilməsi) və ya digər zərərlərdən qorunması ilə məşğul olur. Bu məqsədə çatmaq üçün Bankda mövcud olan məlumat mənbələri məxfilik səviyyəsinə görə təsnif edilir, məlumatların yalnız səlahiyyətli istifadəçilər tərəfindən əldə edilməsi təmin edilir və Bank sistemlərinə və rabitə kanallarına müdaxilənin qarşısı alınır. Bu risklər İnformasiya Təhlükəsizliyi Departamentinin informasiya təhlükəsizliyi əməkdaşları tərəfindən idarə olunur və İnformasiya Təhlükəsizliyi Siyasəti ilə tənzimlənir.

**Hüquqi risklər** Hüquq və ƏL/TMM Departamenti tərəfindən hüquqi və tənzimləyici dəyişikliklərin monitorinqi və qüvvədə olan qanunvericiliyə uyğunluğu təmin etmək üçün siyasət, məhsul və prosedurlara mütəmadi nəzərdən keçirilməsi ilə idarə olunur. Hüquq və ƏL/TMM Departamenti Bankın qanuni maraqlarını qorumaq üçün Bankın tərəf olduğu müqavilələri diqqətlə nəzərdən keçirir.

**Nəzarət riskləri** müştərilərin identifikasiyası, müştəri əməliyyatları ilə bağlı məlumatların toplanması və saxlanılmasını təmin edən Nəzarət Departamenti tərəfindən idarə olunur. Bank şübhəli əməliyyatları müəyyənləşdirir, yerli qanunvericiliyə uyğun olaraq konkret əməliyyatlar üçün sənədləşdirilmiş yoxlama təmin edir və müvafiq maliyyə monitorinqi orqanına hesabat verir.

**Kənar risklərə** təbii fəlakətlər, soyğun, məlumat oğurluğu, saxtakarlıq daxil olmaqla üçüncü şəxslərin fırıldaqçılıq fəaliyyətləri nəticəsində işlərin pozulması və aktivlərin ləğv olunması daxildir, lakin bununla məhdudlaşmır. Bank mümkün və iqtisadi cəhətdən məqbul olduğu hallarda effektiv sığorta planı ilə kənar riskləri azaldır.

**3.7. Digər risklər: Strateji, reputasiya və layihə riskləri**

Strateji risk – qeyri-müvafiq strateji hədəflərin seçilməsi riski – ilkin olaraq İdarə Heyəti tərəfindən idarə olunan strategiyanın inkişafı və biznes planlaşdırma prosesi vasitəsilə idarə olunur. Ümumi strategiya səhmdarlar tərəfindən təsdiq edildiyi və dolayısıyla onların istəklərini əks etdirdiyi halda, strateji plan, perspektiv və hədəflər İdarə Heyəti tərəfindən hazırlanaraq təsdiq üçün Şuraya təqdim olunur. Prosesə Müşahidə Şurasının Strategiya Komitəsi tərəfindən nəzarət olunur. Bütün əsas maraqlı tərəfləri cəlb etməklə strateji risk minimuma endirilir.

Reputasiya riski xüsusilə pərakəndə depozitlərin təkrar maliyyələşdirilməsi üzrə sabit bazasını qorumaq üçün ictimaiyyətin etimadına əsaslanan ABA kimi bir bank üçün mühüm problemdir. Bank müştərilərlə və ümumi ictimaiyyətlə münasibətlərdə şəffaflıq və ədalət prinsiplərinə riayət edir. Bu yanaşma Bankın üzləşdiyi reputasiya (nüfuzun itirilməsi) risklərini minimuma endirmək üçün nəzərdə tutulmuşdur. Bu risklərə Bankın marketinq Departamenti tərəfindən sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində Bankın qeydlərinin izlənilməsi və Banka daxil olan şikayətlərin qeydə alınması ilə nəzarət olunur.

Layihə riski daxili potensialın olmaması səbəbilə Bankın nəzərdə tutulan layihələri həyata keçirə bilməməsini əks etdirir. Bu risk əsasən layihələrin icrası və onların gedişatının izlənilməsi üzrə müvafiq metodologiyanın hazırlanması ilə Bankın Layihə İdarəetməsi və Metodologiya Departamenti tərəfindən idarə olunur. Əsas layihələr aylıq olaraq Layihələrin İcrası Komitəsində nəzərdən keçirilir, rəhbərliyə müəyyən olunmuş vaxt çərçivəsindən yayınma hallarında vaxtlı-vaxtında tədbirlər görmək imkanı verir.

## 4. Kapitalın idarə olunması

Bankın risklərin idarə edilməsi konsepsiyası həm iqtisadi kapitalın idarə olunması, həm də kapitalın prudensial tələblərə uyğunluğunun təmin edilməsinə əsaslanır. Bank potensial stres hallarında uyğunluğu qoruyub saxlamaq və Bankın strateji maliyyə proqnozlarına uyğun olaraq planlaşdırılan biznes inkişafına imkan yaratmaq məqsədi ilə kapital səviyyələri üçün tənzimləyici minimumdan yüksək hədəflər müəyyən edir.

Bankın əlavə kapitalı tənzimləyici minimumdan yüksək səviyyədə saxlamaq öhdəliyi risklərin idarə edilməsi prosesləri haqqında aşağıdakı bölmədə göstərilən mütəmadi stres testi ilə dəstəklənir. Risklərə davamlılıq qabiliyyəti yaranan risklərin miqyası və kapitalın adekvatlığı barədə ümumi təsəvvür yaradır. Proses açıq şəkildə kapital adekvatlığı üzrə normativ hesablamanın bir hissəsi olmayan riskləri nəzərə alaraq həyata keçirilir. Buna əsasən Bank öz risk strategiyası çərçivəsində risk iştahını müəyyən edir.

## 5. Risklərin idarə edilməsi prosesi

Risklərin İdarə Edilməsi Departamenti Bankda əsas risk proseslərinin həyata keçirilməsinə cavabdehdir. Bu proses risklərin müəyyənləşdirilməsi, ölçülməsi, nəzarət edilməsi və hesabat verilməsi üzrə bütün mərhələləri əhatə edir.

Risklərin idarə edilməsi üzrə əsas proseslər Bank kapitalının qiymətləndirilməsi və saxlanılması ilə əlaqədardır. Risk qiymətləndirməsi Bankın üzləşdiyi əhəmiyyətli risklərin miqyasını və baş vermə ehtimalını anlamaq məqsədi ilə ildə iki dəfə aparılır. Prosesin nəticəsi olaraq risk xəritələri hazırlanır. Risklərin İdarə Edilməsi Departamenti Bankın artıq üzləşdiyi əsas riskləri ölçmək üçün modellər və ssenarilər hazırlayır və yaranan risklərin miqdarını azaltmaq üçün rəhbərliyə yüngülləşdirici tədbirlərlə bağlı təkliflər hazırlayır. Rəhbərlik həmin layihələri təsdiqləyir - və bu halda risk səviyyəsini azaltmaq müvafiq tədbirlər görülür - və ya riski qəbul edir.

Modelləşdirmənin nəticəsi Risklərə davamlılıq qabiliyyətini (RBC) dəyərləndirərkən nəzərə alınır. RBC kapitalın, likvidliyin və digər prudensial tələblərin nəzərə alınması ilə Bankın davam gətirə biləcəyi riskin maksimal ölçüsü kimi müəyyən edilir. Risklərin İdarə Edilməsi Departamenti tərəfindən həyata keçirilən modelləşdirmə Bankın artıq üzləşdiyi risklərin miqdarını müəyyənləşdirir. RBC və artıq üzləşilmiş risklər barədə əldə edilən məlumatlara əsasən Bank birlikdə risk iştahını təşkil edən hər bir əsas risk kateqoriyası üçün ayrıca əlavə risklərin yaranması üzrə limitlər müəyyən edir. Limitlərlə yanaşı, Risklərin İdarə Edilməsi Departamenti Bankın təsdiq edilmiş hər hansı risk limitinə yaxınlaşdığı təqdirdə Müşahidə Şurasının xəbərdar edilməsi üçün triqqerlər hazırlayır.

Stress testi Bankın CAR, leverec və likvidlik əmsallarına əsasən yarım ildə bir aparılır. Stress testində üç ssenari istifadə olunur: Əsas variant (Bankın biznes planı), əlverişsiz (baş verən risklərin 50%-ə qədər realizasiyası) və olduqca əlverişsiz (baş verən risklərin 100%-ə qədər realizasiyası). Stress testinin məqsədi Bankın stres altında ola biləcəyi ehtimal edilən gələcək fəaliyyətini müəyyənləşdirmək, risklərin azaldılması və ya zəruri hallarda Bankın kapital bazasının artırılması üçün vaxtında tədbirlər görmək bacarığıdır.

Stress testindən sonra əsas varianta əvvəlki modeli faktiki inkişafla müqayisə edildiyi və Bankın planlaşdırma və proqnozlaşdırma potensialını artırmaq üçün sistematik yayınmaların müəyyənləşdirildiyi əks stress testi tətbiq edilir.

Risklərin İdarə Edilməsi Departamenti ayrı-ayrı fəlakət ssenarilərini və hər bir vəziyyətdə bərpa məqsədlərini müəyyən edən fövqəladə hal planının hazırlanması və həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

Risklərin İdarə Edilməsi Departamenti Rəhbərlik, Müşahidə Şurası və RMC-yə risklərin mütəmadi və adekvat hesabatını təqdim edir. Bunun üçün əsas vasitə mütəmadi risk hesabatıdır. Risklərin İdarə Edilməsi Departamenti hesabatın yekun olaraq hazırlanmasına cavabdehdir, lakin hesabat sistemlərinin riskləri lazımi qaydada qeydə almasını və əks etdirməsini təmin etmək üçün Bankın hesabatlılıq funksiyasıilə sıx əməkdaşlıq edir. Bu, risklərin vaxtında müəyyənləşdirilməsi və hesabat verilməsini, habelə məlumatların keyfiyyətinin təmin olunmasını əhatə edir.

**5.1. Risklərin təsdiqlənməsi üzrə yeni proses**

Risklərin idarə edilməsi üzrə əlavə proseslərə Risklərin İdarə Edilməsi Departamentinin Bankın iş proseslərinə, məhsullarına və xidmətlərinə edilən hər bir mühüm dəyişiklik üçün və ya yeni bir məhsul istehsalına başlanmazdan əvvəl yeni risk qiymətləndirmə prosesi həyata keçirdiyi əməliyyat riski aiddir. Qiymətləndirmə hər hansı dəyişikliyin həyata keçirilməsindən əvvəl aparılır və Rəhbərliyə təklif olunan proseslərə dəyişiklik edilməsi və ya risklərin qəbul edilməsinə dair məqbul qərarlar qəbul etmək imkanı verir.

„Access

Access